# Qəbələ tarixi anlarını yaşamaqdadır

(Əvvəli 3-cü səhifədə).

Nəhayət, festivalın rəsmi hissəsi başlanır. Rayon icra hakimiyyəti başçısının müavini ƏtayəOsmanova giriş sözü ilə festivalı açıq elan edir. Çıxış etmək üçün ilk söz rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə verilir. **(Səbuhi Abdullayevin çıxışı dərc olunur).** Sonra respublika kənd təsərrüfatı nazirinin müavini Fikrət Babayev, UNESCO-nun Dünya Xalq Yaradıcılığı Təşkilatının prezidenti xanım Karmen de Padelle, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Milli Kulinariya Mərkəzinin prezidenti Tahir Əmiraslanov, respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov çıxış etmişlər. Çıxışlarda bu xalq yaradıcılığına həsr olunmuş tədbirin Azərbaycan xalqının milli adət-ənənələrinin yaşadılmasında, inkişaf etdirilməsində böyük əhəmiyyəti olduğu vurğulanmışdır. Həmçinin festivalın gələcəkdə daha geniş miqyas alacağına toxunulmuşdur.

Çıxışlar bitdikdən sonra qonaqlar və təşkilat komitəsinin üzvləri festivalın qırmızı lentinin kəsilməsinə, təşkil edilmiş sərgiyə baxış üçün dəvət edilmişlər.





Sonda qiymətləndirmə mərasimi olmuşdur. 19 rayonun mürəbbə ustaları festivalın sertifikatına layiq görülmüşdür. Rayonumuzdakı «Xanlar» restoranının müdiri Xanlar Kərimov hazırladığı müxtəlif çeşidli, ləziz şirniyyatlara görə Milli Kulinariya Mərkəzinin fəxri üzvü adına və sertifikatına layiq görülmüşdür.

Festival Qəbələ incəsənət ustalarının konserti ilə başa çatmışdır.

**Nadir ATAKİŞİYEV.**
**Fotolar**
**İ. Vəlizadənindir**

# Nəqliyyat naziri Qəbələdə vətəndaşları qəbul edib



Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həllinə kömək göstərirlər.

Növbəti belə qəbul avqustun 28-də Qəbələ Rayon Mədəniyyət Mərkəzində keçirilib. Nəqliyyat naziri Ziya Məmmədov Qəbələ, İsmayıllı və Ağsu rayonlarından olan vətəndaşları qəbul edərək onların müraciətlərini, şikayət və təkliflərini dinləyib.

Vətəndaşların müraciətləri əsasən avtomobil yollarının təmiri və yenidən qurulması, yeni avtobus marşrutlarının açılması, dağ çayları üzərində körpülərin salınması, işə qəbul və digər məsələlərlə bağlı olub. Nazir Ziya Məmmədov vətəndaşların səsləndirdikləri müraciət və şikayətlərlə əlaqədar nazirliyin struktur rəhbərlərinə göstərişlər verib. Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər isə aidiyyəti qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

**Zahir KƏRİMOV.**
**Foto S. Umuyevindir.**

# Baş prokuror Qəbələdə vətəndaşları qəbul edəcəkdir

Azərbaycan Respublikasının Baş Prokuroru, Birinci Dərəcəli Dövlət Ədliyyə Müşaviri cənab Zakir Qaralov tərəfindən Qəbələ Rayon Prokurorluğunun inzibati binasında Qəbələ, Şəki, Qax, Balakən, Oğuz və Zaqatala rayonlarında yaşayan vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid məsələlərə dair qəbulunu keçiriləcəkdir.

Vətəndaşların qəbulu 4 sentyabr 2015-ci il tarixdə saat 10:00-da başlanır.

Qəbələ vətəndaşları əvvəlcədən qəbula yazılmaq üçün sentyabrın 4-dək həftənin bütün günlərində saat 9:00-dan 20:00-dək rayon prokurorluğunda qeydə alınırlar.

Qəbula gəlmək üçün zəruri hallarda vətəndaşlara nəqliyyat vasitələri ayrılacaqdır.

**QƏBƏLƏ RAYON PROKURORLUĞU.**

# TƏQVİMDƏN SƏTİRLƏR

**1 sentyabr:** Tarixçi alim **Mahmud İsmayılov** (1920—2002) Şəkidə anadan olmuşdur. Azərbaycan tarixinə aid tədqiqatları var, tarixi romanları nəşr olunub. Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda işləyib. İkinci dünya müharibəsinin iştirakçısı olub.

Məşhur pəhləvan, sirk ustası, xalq artisti **Rəşid Yusibov** (1900—2003) Gürcüstanın Bolnisi rayonunda anadan olmuşdur. 1926-cı ildə Klassik güləş üzrə yarışların qalibi sayılmışdır. 1919-cü ildən sirkdə çıxış etməyə başlamışdır.

Görkəmli xeyriyyəci **Hacı Zeynalabdin Tağıyev** 1924-cü il sentyabrın 1-də 86 yaşında vəfat etmişdir. 1917-ci ildə onun 30 milyon manat kapitalı olmuşdur.

**3 sentyabr:** Xalq artitsti **Yaşar Nurinin** ad günüdür. 1951-ci ildə Bakıda anadan olub. Akademik Milli Dram Teatrında işləyib. Bir sıra filmlərdə çəkilib.

**4 sentyabr:** Orta əsr ensiklopediyaçı alim **Əbu Reyhan Biruni** (973—1048) anadan olmuşdur. Müxtəlif elm sahələrinə aid 150-dən çox elmi əsəri məlumdur. Xarəzmşahlar dövlətinin diplomatik fəaliyyətinə rəhbərlik etmişdir. 1973-cü ildə UNESCO tərəfindən onun 1000 illik yubileyi qeyd olunub.

**5 sentyabr:** Görkəmli tarzən, xalq artisti **Əhməd Bakıxanov** (1892—1973) anadan olmuşdur.

Şair, dramaturq, dövlət xadimi **Hidayət Orucovun** (1944) ad günüdür.

Xalq artisti **Səyavuş Aslan (Aslanov Səyavuş Məmmədtağı oğlu)** anadan olmuşdur. Musiqili Dram Teatrında və Akademik Milli Teatrda maraqlı və yadda qalan obrazlar yaratmışdır. Bir sıra filmlərdə də çəkilmişdir.

**7 sentyabr:** Görkəmli ədəbiyyatşünas alim, tənqidçi, sənətşünaslıq doktoru **Cəfər Cəfərov** (1914—1973) anadan olmuşdur. «Ədəbiyyat qəzeti»ndə, Yazıçılar İttifaqında, «Pravda» qəzetində Azərbaycan üzrə müxbir, Akademik Dram Teatrında bədii hissə müdiri, Bakı kinostudiyasında işləmişdir.